Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

# "EU4LANKARAN" LAYİHƏ XƏBƏRİ

İyun 2024

7-ci hissə

# Aİ-NİN DƏSTƏYİ İLƏ ASTARADA MANDARİN DƏYƏR ZƏNCİRİNİN GENİŞLƏNDİRİLMƏSİ



*Mandarin bağı, Astara*

"Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" layihəsi bu dəfə Astara rayonunda mandarin istehsalına yönəlmiş növbəti dəyər zənciri hesabatı hazırlayıb.

Bu region, xüsusilə Astara Azərbaycanın mandrin istehsalı üçün böyük əhəmiyyət kəsb edir və ölkə istehsalına öz töhfəsini verir. Son illərdə burada kənd təsərrüfatı sektoru yerli fermerlər üçün məhsuldarlığın və bazara çıxışın artırılmasına yönəlmiş təşəbbüslər sayəsində inkişaf edib.



*Mandarin bağı, Astara*

Aparıcı sitrus əkin sahəsi olan Astara rayonunda mandarin istehsalı xeyli artmışdır. 2000-ci ildən mandarin bağlarının sahəsi 5 dəfədən çox genişlənərək 2022-ci ilədək 1977 hektara, istehsal isə 4 dəfə artaraq 11213 tondan 44475,5 tona çatdırılıb. Hazırda Azərbaycanda mandarin istehsalının 87,8 faizi Astaranın payına düşür. Lakin, yaşlı meyvə bağları, köhnə kənd təsərrüfatı təcrübələri, kifayət qədər saxlama infrastrukturunun olmaması və ixrac üçün Rusiya bazarından asılılıq kimi problemlər hələ də aktuallığını qoruyur. Dayanıqlı inkişaf üçün modernləşmə və infrastrukturun inkişafı vacibdir.

Astarada mandarin dəyər zənciri təhlili bir neçə əsas nəticəni üzə çıxardı. Bir çox meyvə bağlarında yaşlı ağacların yenilənməyə ehtiyacı var və yerli fermerlərin müasir əkinçilik texnikası haqqında məlumatı yoxdur. Yüksək əmək xərcləri və qeyri-kafi texniki qulluq təcrübələri zəif məhsuldarlıq və keyfiyyətlə nəticələnir. Saxlama üçün müvafiq şərait yoxdur və bu, məhsulların tez xarab olmasına səbəb olur, eləcə də əlavə dəyərli məhsulların yerli emal müəssisələri mövcud deyil. Bazar dəyişkənliyi səbəbindən Rusiya bazarından asılılıq risklidir, Aİ və Körfəz bazarlarına çıxma səylərinə isə ciddi keyfiyyət standartları və sertifikatlaşdırma tələbləri mane olur.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Mandarin istehsalında çoxsaylı çətinliklərə baxmayaraq, Astarada bəzi fermerlər uğur əldə ediblər. Gəlin onları daha yaxından tanıyaq.

Kijəbə kəndindən mandarin istehsalçısı Fazil Qurbanov dağlıq ərazidə 2 hektar meyvə bağını idarə edir. O, suyu 2 km məsafədən çəkib və damcı suvarma üsulundan istifadə edir. Çətin relyefə baxmayaraq, bu texnologiyanın çiləmə və gübrələməni asanlaşdıracağına inanır. Onun əsas çətinlikləri əmək xərcləri və saxlama anbarının olmamasıdır. Bu çətinliklər onu məhsulu dərhal aşağı qiymətə satmağa məcbur edir.

Əhlinaz Nəzərova 2,02 hektar mandarin, portağal və feyxoa bağlarına sahibdir və ötən il 1,8 ton sitrus meyvəsi istehsal edib. O, 2018-ci ildə 0,5 hektarla başlayıb, işindən əldə etdiyi gəlir və qənaətlərdən istifadə edərək bağını genişləndirib. Əhlinaz xanım qadınların artıq xərclərdən yayınaraq gəlirlərini artıra biləcəyinə inanır və fermerlər arasında bilik mübadiləsinə dəyər verir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, WEglobal və onun tərəfdaşları tərəfindən həyata keçirilən "EU4Lankaran" layihəsi mandarin dəyər zəncirinin təkmilləşdirilməsini dəstəkləyir. Əsas diqqət sahələrinə aşağıdakılar daxildir:

**Meyvə bağlarının modernləşdirilməsi.** Layihə köhnə meyvə bağlarının yenilənməsini və yüksək məhsuldar sortların tətbiqini dəstəkləyir. Astarada 9 fermer arasında 2 hektar ərazini əhatə edən intensiv nümayiş mandarin bağları yaradılacaq, 1410 ting paylanacaq (tez yetişən: Okitsu Wase, mövsümün ortasında yetişən: Karlik və gec yetişən: Un-şio). Fermerlərə məhsuldarlıq və keyfiyyəti artırmaq üçün müasir kənd təsərrüfatı təcrübələri üzrə təlim keçiriləcək.



*Mandarin bağı, Astara*

**Maliyyələşdirilə bilən layihələr.** Astarada maliyyələşdirilə bilən layihələr (maliyyə baxımından həyata keçirilə bilən və potensial kreditorlar və ya investorlar üçün cəlbedici olan investisiya layihələri) üçün potensial sahələr üzrə araşdırmalar mandarin dəyər zəncirini və kənd təsərrüfatı məhsuldarlığını artırmaq məqsədi daşıyır. Əsas diqqət mərkəzinə müasir suvarma sistemləri, soyuducu anbarlar və emal müəssisələri daxildir. Kooperativlərin yaradılması və müasir təcrübələr üzrə təlimlər məhsuldarlığı, bazara çıxışı və dayanıqlı iqtisadi inkişafı artırmaq məqsədi daşıyır.



*Mandarin bağı, Astara*

**Bazarın şaxələndirilməsi və brendinq.** Rusiyadan kənar bazarlara çıxışın genişləndirilməsi üçün səylər göstərilir və əsas hədəf kimi Avropa İttifaqı və Körfəz ölkələri seçilib. Layihənin məqsədi fermerlərə standartlara cavab vermək və bu bazarlar üçün sertifikatlar almaqda kömək etməkdir. Brendinq və marketinq strategiyası Astara mandarinlərini digər növlərlə müqayisədə daha aşağı şəkərli tərkibini vurğulayaraq sağlamlığa faydaları olan təbii məhsul kimi tanıdacaq.

**Təlim və bacarıqların artırılması.** Layihə çərçivəsində Masallı, Lənkəran və Astaradan 185 sitrus istehsalçısına (54-ü Astarandan olmaqla) təlimlər kiçirilib. Qabaqcıl sitrus meyvəçiliyi təcrübələrini öyrənmək üçün Türkiyənin Antalya şəhərində yerləşən Batı Akdeniz Kənd Təsərrüfatı Tədqiqat İnstitutuna təcrübə səfərləri təşkil edilib. Bu təşəbbüslərin məqsədi yerli fermerlərin bilik və bacarıqlarını artırmaq, onlara daha yaxşı təcrübələri aşılamaq və rəqabət qabiliyyətini artırmaq olub.

Yekun olaraq, “EU4Lankaran” layihəsinin dəstəyi Astarada mandarin sektorunun üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək üçün çox vacibdir. Davamlı səylər və strateji müdaxilələrlə region dayanıqlı inkişafa və bazarda mövcudluğun artmasına, yerli iqtisadiyyata fayda verməyə və fermerlərin gəlirini artırmağa hazırdır. “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.



*Mandarin bağı, Astara*

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*